# Qəbələdə ilin birinci rübü uğurlu olmuşdur

## Rayon icra hakimiyyətində geniş şura iclası keçirilmişdir

***Mayın 7-də Qəbələ Rayon İcra Hakimiyyətində 2019-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair şura iclası keçirilmişdir. Tədbirdə Prezident Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev, şura üzvləri, icra nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə, təşkilat rəhbərləri və sahibkarlar iştirak etmişlər.***



İclasda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi dinlənilmişdir. **(Məruzə qəzetin bu nömrəsində çap edilib).**



Tədbirdə Prezident Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev 2019-cu ilin birinci rüb ərzində ölkəmizdə sosial- iqtisadi sahədə görülən işlər və əldə olunan nailiyyətlər barədə məlumat vermişdir.

Hesabat məruzəsi ətrafında Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Rahib Əhmədov və rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov çıxış etmişlər.

İclasda sosial-iqtisadi inkişaf sahəsindəki mövcud vəziyyət ətraflı müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və müvafiq qərar qəbul olunmuşdur.

Şura iclasını rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

### *Rüfət Əliyev, Prezident Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri*

**Hörmətli yığıncaq iştirakçıları, xanımlar və cənablar!**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyilə Nazirlər Kabinetinin aprelin 30-da keçirilən cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı vətəndaşların rifahının daha da yaxşılaşdırılması, ölkədə sosial-iqtisadi sahədə aparılan islahatların genişləndirilməsi, ixrac potensiallı yerli istehsalın artırılması istiqamətində qarşıya qoyulan bütün vəzifələrin uğurla və vaxtında icra edildiyini qeyd etmişdir. İclasda cənab Prezident ölkənin iqtisadi, siyasi, və sosial sahələrini əhatə edən bütün məsələlərə toxunmuş, aparılan islahatların davamlı olacağı barədə proqram xarakterli fikirlər söyləmişdir.

Sabitliyin, davamlı inkişafın, idarəetmə sistemində təkmilləşmə prosesinin yeni hədəflər istiqamətində, Azərbaycanın bugünkü reallıqları fonunda ən yüksək zirvələri fəth etdiyi ölkə başçısı tərəfindən diqqətə çatdırılmış, bu ilin ilk üç ayı ərzində ölkədə sosial-iqtisadi inkişafın, aparılan abadlıq-quruculuq işlərinin geniş vüsət aldığı bildirilmişdir.



Həyata keçirilən infrastruktur layihələrinin davamlı olacağını, əhalinin sosial problemlərinin həllinə dair mühüm tədbirlərin görüləcəyini deyən cənab Prezident ilk üç ayda sənayedə istehsalın 4,4 faiz, qeyri-neft sektorunda 15,6 faiz, kənd təsərrüfatında 3,6 faiz, əhalinin gəlirlərinin isə 5,5 faiz artdığını vurğulayıb.

2019-cu ilin ilk üç ayının müxtəlif sferalara aid olan göstəriciləri göstərir ki, Azərbaycan inamla, qətiyyətlə və davamlı olaraq inkişaf edir. Dövlət başçısının da ifadə etdiyi kimi, bu proses bundan sonra da davam edəcək.

### *Rahib Əhmədov, Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru.*

**Hörmətli yığıncaq iştirakçıları!**

Son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bu sahədə xeyli irəliləyiş olmuşdur. Xüsusilə, ölkə başçısının imzaladığı "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncam bu sahənin canlanmasına böyük stimul yaratmışdır.

Rayonumuzda keçən il optimal müddətdə bu ilin məhsulu üçün 15790 hektar buğda, 4400 hektar arpa ümumillikdə 20190 hektar sahədə taxıl əkilmişdir. Taxıl sahələrində normal bitiş alınmışdır və becərmə işləri aqrotexniki qaydada aparılır.

2019-cu ilin birinci rübündə 12226 hektar taxıl sahəsinə 1200 ton mineral gübrə verilmişdir. Hazırda bu proses davam etdirilir.

Cari ilin birinci rübündə tütün əkini üçün 3000 kv metr sahədə isti şitillik salınmışdır. Bu günədək 38 hektar sahəyə tütün şitilləri köçürülmüşdür.

Bu il 192 hektar sahədə çuğundur əkilmişdir. Artıq



burada ilk becərmə işləri görülür.

Ölkə başçısının qeyd etdiyi kimi İndi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. Ona görə də ixrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanılır.

Bu baxımdan fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. 2016-2017-ci illərdə rayonda 1218 hektar, 2018-ci il ərzində 548 hektar, 2019 cu ilin yazında isə 237 ha olmaqla cəmi 2003 hektar yeni fındıq bağları salınmışdır.

Rayondakı 2 böyük və 2 kiçik aqroservisdə və fiziki şəxslərdə 63 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı, 398 ədəd təkərli traktor, 24 ədəd buldozer, 50 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası vardır.

2018-ci ildə arıçılıqla məşğul olan şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə dövlət büdcəsindən subsidiya verilməsinə başlanmış, qeydiyyata alınan 9000-ə yaxın arı ailəsinə subsidiya verilmişdir.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcmli heyvandarlıq təsərrüfatı fəaliyyət göstərir.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. İlin əvvəlindən aparılan müayinələr zamanı heyvanlar arasında yoluxucu xəstəliklər müşahidə edilməmişdir. Hazırda epizootik durum demək olar ki, sabitdir.

### *Sabir Bayramov, rayon mərkəzi xəstəxanasının baş həkimi.*

**Hörmətli tədbir iştirakçıları!**

Ölkə Prezdenti, möhtərəm İlham Əliyevin apardığı uğurlu siyasət, insanların sosial rifahına yönəlmiş arıdıcıl tədbirlər sayəsində bütün sahələrdə olduğu kimi səhiyyə sahəsində də böyük nailiyyətlər qazanılmışdır.

Məhz bunun sayəsində artıq növbəti ildən bütün ölkə ərazisində icbari tibbi sığortaya keçilməsi üçün sərəncam verilmişdir. Geniş miqyaslı sosial layihə olan icbari tibbi sığortanın başlıca məqsədi səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla qurmaq, tibbi xidmətlərin əlçatanlılığını təmin etməklə əhalini sağlamlıqla bağlı maliyyə risklərindən qorumaqdır.

İcbari tibbi sığorta münasibətlərinin tənzimlənməsi məqsədilə 20 dekabr 2018- ci il tarixdə "Tibbi sığorta haqqında" Qanuna bir sıra mühüm dəyişikliklər edilmişdir. Xidmətlər zərfinin baza hissəsi ilkin səhiyyə xidmətini, habelə təcili və təxirəssalınmaz



tibbi yardım ehtiva edir. Sözügüdən qanuna əsasən xidmətlər zərfinin baza hissəsi üzrə sığorta haqqı 29 manat təşkil etməklə dövlət büdcəsi tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur. Xidmətlər zərfinin baza hissəsinə münasibətdə Azərbaycan Respublikasının vətəndaşları, ölkəmizdə daimi və ya müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər sığorta olunan hesab edilir və bu isə o deməkdir ki, sadalanmış şəxslər baza hissəsində nəzərdə tutulmuş xidmətlərlə dövlət büdcəsi hesabına təmin olunurlar.

Xidmətlər zərfinin əlavə hissəsi üzrə sığorta haqqlarının məbləği işəgötürənlər üçün əmək haqqı fondunun 2 faizini, işçilər üçün əmək haqqının 2 faizini, habelə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün 120 manat təşkil edir.

Qeyd etmək lazımdır ki, əhalinin xeyli hissəsinin tibbi sığorta haqqının dövlət tərəfindən ödənilməsi nəzərdə tutulmuşdur. Bu kateqoriyaya 18 yaşınadək şəxslər, 23 yaşınadək tələbələr, əmək pensiyaçıları, sosial müavinət və sosial yardım alanlar, hamilə qadınlar, ödənişli sosial məzuniyyətdə olanlar daxildir.

2020-ci ildən icbari tibbi sığortaya keçidlə bağlı bizim rayonda da bu istiqamətdə işlər aparılır. Fürsətdən istifadə edərək icra nümayəndələrinin və aidiyyatı şəxslərin ərazilərindəki sakinlərin, böyüklər və uşaqların şəxsiyyət vəsiqələri ilə təmin olunmasına kömək etmələrini xahiş edirəm.